# *Hikmət Ziya*

Bir qələm sahibi kimi onun yaradıcılıq simasını təmsil janrı müəyyən edir. Azərbaycan ədəbiyyatında qısa təmsil anlayışı müasir ədəbi prosesə bilavasitə H.Ziya adı ilə gətirilmişdir. Ədibin təxminən 3000-ə yaxın təmsili vardır.

Əməkdar incəsənət xadimi, tanınmış şair Hikmət Ziya oğlu Əfəndiyev 1929-cu il mayın 13-də Ağdam şəhərində anadan olmuşdur. 1 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır (1947-1952). Ədəbi yaradıcılığa 1952-ci ildə "Azərbaycan pioneri" qəzetində çap edilən "Qeqola" adlı ilk şeiri ilə başlamışdır. Sonra dövri mətbuatda vaxtaşırı yeni şeirləri ilə çıxış etmişdir. İlk satirik şeirləri, eyni zamanda "Atamın hədiyyəsi" (1957), "Bahar gözəldir, ya qış?" (1959), "Milçək ürəyi" (1960) kitabları Hikmət Əfəndiyev imzası ilə çap olunmuşdur. "Qərib cinlər diyarında" bədii filminin ssenari müəllifidir.

Xidmətlərinə görə Azərbaycanın Əməkdar İncəsənət xadimi (1986) fəxri adına layiq görülmüş, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə təltif olunmuşdur.

Hikmət Ziya 1995-ci il avqustun 2-də Bakıda vəfat etmişdir.

● M.MƏMMƏDOV